Azərbaycanlı feministlərin “azadlıq məşəli”,

CABİR ƏLİYEV
PhD, vəkil

yaxud şirin su feministliyinin dözülməz yüngüllüyü



Lucky Strike adlı siqaret brendinin reklam fotosu. Müəllif: Nickolas Muray, 1936

Az qala bu ölkədə çap olunan pizza restoranlarının reklam broşüralarına da sevinən mən, feminizm təşviqatına iddialı risalələrə, yaxud da bu ad altında qol qoyulan fəaliyyətlərə sevinə bilmirəm. Ona görə yox ki, qrant şəklində pulları havaya sovrulan isveçrəli, alman, yaxud da holland vergi ödəyicilərinə ürəyim yanır... Yox! Məhz ona görə ki, biz yenə fürsəti fövtə veririk...

2013-cü ilin iyun ayında, bürkülü bir axşamüstü köhnə dəyirmanın yerində ucalan “Landmark” iş mərkəzinin 4-cü mərtəbəsində iki-üç hüquqşünas pəncərəsiz bir otaqda bikef-bikef ölkənin məhkəmə sistemində problemli sahə axtarışına çıxmışdı. Menecerin tapşırığı vardı! Tematik bir hipotez irəli süruləcək və 6 ay ərzində Bakıda müxtəlif məhkəmələrdə müşahidələr aparılaraq bu hipotezin təsdiqi tapılacaqdı. Amma məhdudiyyətlər də yox deyildi. Məsələn, son dövrlər aqressivləşən hökuməti qıcıqlandırmaq olmazdı. Mövzü seçimində mümkün qədər “təhlükəsiz” olmaq məsləhət görülmüşdü. Uzun çək-çevirdən sonra “təhlükəsiz” mövzu tapıldı. Məişət zorakılığına dair məhkəmə işləri izlənilməkdi... Hüquqşünaslar bikef idi, çünki, 2003-cü il prezident seçkilərindən sonrakı repressiyaları izləmiş, hesabatlarına Avropa İnsan Hüquqları Məhkəməsi qərarlarında istinad edilmiş ATƏT-in məşhur Məhkəmə Monitorinqi Proqramının bu qədər ağır vəziyyətdə qalması və yaşamaq üçün “dişsiz”, “təhlükəsiz” mövzu axtarmaq məcburiyyəti onları sıxırdı. Amma qorxunun əcələ faydası olmadı, məişət zorakılığı bir vaxtların ‘populyar’ proqramının sonuncu işi oldu. Əvvəl Proqram, 2–3 ay sonra isə ümumiyyətlə ATƏT-in Bakı Ofisi bağlandı.

Əslində 2013-cü ilin İyun ayında “Landmark”da, o pəncərəsiz otaqda gedən müzakirələr, Azərbaycanda “qadın məsələsi”nə baxış və sonrakı inkişafı üçün simvolik və xarakterikdir. Ona görə ki, Azərbaycanda qadın məsələsi qadınların fəryadı olaraq gündəmə gəlməmişdi, hökümət üçün “dişsiz” və “təhlükəsüz” mövzu axtarışının nəticəsində gündəmdəydi qadınlar. Azərbaycanda “qadın məsələsi” siyasi hüquqlarla bağlı “təhlükəli” işlər sahəsində layihələr həyata keçirmək imkanları daraldıqca, işsiz qalan beynəlxalq təşkilatların və yerli partnyorlarının müraciət etdiyi sevimli mövzuya çevrildiyi üçün populyarlaşmağa başladı.

Zəlzələdən, ya vəlvələdən qadın məsələsi gündəmə gəldi və yaxşı ki də gəldi! Amma görünən odur ki, qadın məsələsi ilə məşğul olanlar və “çörəyi burdan çıxanlar” 2000-ci illərdəki qhtşnik sələfləri kimi

fürsəti fövtə verməyə hazırlaşırlar. Onlar da sələfləri kimi mahiyyəti bir kənara qoyub 'pulu' verənin çaldığı havanı oynayır, üstəlik yenə sələfləri kimi heç bir tənqidi fikri qəbul etmək istəmirlər. Bir sözlə, "hökumətə işləmək" "qadın düşməni" etiketi ilə əvəzlənib. Amma təəssüf ki, nə yalnız donorların verdiyi qrantlar, nə də həll edilməmiş *edip kompleksi*, yaxud da uşaqlıqda alınan travmalar Azərbaycandakı qadın problemini həll etmək üçün kifayət deyil. Əksinə, "kitab"ın yox, uşaqlıq travmalarının və qrantın çəkdiyi tətiyin atdığı mərmi elə birbaşa Azərbaycandakı "qadın məsələsi"ni vurur.

Səd əfus, Azərbaycanda feminizm adına qol qoyulan fəaliyyətlərin hüquqları pozulan, diskriminasiyaya məruz qalan, bir sözlə, əzilən qadınlara dəxli yoxdur. Acınacaqlıdır ki, azərbaycanlı feministlər "qadın" mövzusunun ikinci dərəcəli, "light" və əhəmiyyətsiz olduğu barədə hökumətin rəsmi mövqeyi ilə həmfikirdir. Patriarxal "dövlət"in diktə etdiyi bu mövqeyi yerli feministlər şüurlu, yaxud şüursuz şəkildə qəbul edir. Misal üçün, ölkədəki qadın probleminin kökündə sosial və siyasi problemlər olduğunu iddia etmək onların gözündə "qadın düşməni" olmaq üçün kifayətdir. İliklərinə qədər patriarxal iqtidarın səfasını sürən hökümət də qadın probleminin məhz bu kontekstdə müzakirə edilməsinin tərəfadırıdır. Məsələn, hökümət də istəyir ki, feministlər ölkədə tibbi sığorta tələbi ilə ortaya çıxmasın, bunun əvəzinə, ölkədəki qadın problemi hansısa özəl şirkətin reklam çarxındakı "seksist" ifadəyə müncər edilsin. Halbuki Azərbaycanda genderlə bağlı ən böyük problem sayılan qız uşaqları əleyhine selektiv abortun başlıca səbəblərindən biri seksist reklam çarxları yox, məhz ölkədə tibbi sığortanın olmamasıdır. Bəli, valideynlər düşünür ki, o, yaşlı və xəstə olanda ona qız övladı baxa bilməyəcək. Ona görə də oğlan uşağı istəyir. Oğlan uşağı onun sosial və tibbi sığortasıdır.*

Azərbaycanda feminist fəaliyyətin digər problemli tərəfi isə feminizmi "universallaşdırmaq" cəhdidir. Şirin su feministlərinə görə feminizm qorxulu deyil, əslində hamı feminist ola bilər, heç də bütün feministlər aybaşı qanı ilə qraffiti çəkmirlər, heç də bütün feministlərin ayaqları tüklü olmur! Həm epilyasiya edib, həm də feminist olmaq mümkündür. Bəli, bəli... feminist olmaq "sexy" və cazibədar olmağa əngəl deyil!

Bu kontekstdə Azərbaycanda başqa bir populyar feminist fəaliyyət növü isə müxtəlif müsahibələr, kitabçalar və tədbirlər vasitəsi ilə cəmiyyətə qadın rol modelləri, başqa sözlə, cəsur qızlar təqdim etməkdir. Əslində bu fəaliyyətin də "qadın məsələsi"nə və ümumi olaraq feminizmə heç bir aidiyyəti yoxdur. Şirin su feministi təhtəlşüurunda patriarxal iqtidarı yıxmaq əvəzinə, ona şərik olmaq istəyir. Uzun kabluklarla biznes forumlarda qadının iş həyatındakı rolundan dəm vuran Aynur, həm cəmiyyəti çaşdırır, həm də Fatma xalanı! Bəli, yaxınlıqda uşaq bağçası olmadığı üçün səhər saat 7-dən evdən çıxıb uşağını baxçaya qoyan, bərbad ictimai nəqliyyatla özünü bir təhər şirkətə çatdıran və günboyu şirkətin tualetində Aynurun p.xunu təmizləyən Fatma xala başa düşmür ki, şirkətin CEO-su Həsən yox, Aynur xanım olsa bu hadisə ona nə kimi fayda verəcək? İş həyatında müvəffəq olmuş Aynur xanım kimi "cəsur qızlar" bir şirkətin CEO-su, yaxud da hansısa idarənin rəisi olduqdan sonra Fatma xalanın məhz qadın olduğu üçün yaşadığı hansı problem öz həllini tapacaq? Aynur xanım CEO olanda Fatma xalanın problemlərinə daha həssasmı yanaşacaq? Cəsur qızlar qərar verməlidir, patiarxal düzənləmi mübarizə aparırlar, yoxsa bu patriarxal düzəndə iqtidar sahibi olmaq uğrundamı? Fatma xala haqlı olaraq fikirləşir ki, Aynur xanım kimilər patriarxal düzəndə CEO olub öz popolarını xilas etməyi niyə feminizm adıyla sırayırlar ona? Aynur isə Starbucks'da qadınların cəsurluğuna apellyasiya edən reklamdan təsirlənib satın aldığı *Gucci* eynəyini çıxarıb *caffè macchiato*sundan (ötən axşam *Google*-dan neçə kalori olduğunu da yoxladığı üçün ürəyi rahatdı) bir qurtum içəndən sonra rəfiqəsinə belə deyir: "Vot, tam *mansplaining*di bu! Bilirsən, Seva, bizə başqa düşmən lazım deyil. Bu Fatma xala kimi qadın düşmənlərini başa düşmürəm də!"

Bəli, təəssüf ki, Azərbaycanda feminist fəaliyyətin istinadgahı patriarxal münasibətləri özündə pərçimləyən kapitalist düzəndir. Cəsur qızların feminizm haqqında intellektual baqajını kapitalist nizamın divləri sayılan böyük şirkətlər və onların sevimli məşuqələri olan reklam agentlikləri formalaşdırır. Ona görə də bizdəki feminist fəaliyyət simvolika ilə məşğuldur, mahiyyətə nüfuz edə bilmir. Düşmən fallusdur!

Kapitalist propaqandanın qurbanı olmaq və bunun nəticəsində də mahiyyətdən yayınıb simvolika ilə uğraşmaq əslində qadın hərəkatının tarixinə yad

deyil. Bunların bəlkə də ən ibrətamizi 1929-cu ildə "azadlıq məşəlləri" sloqanıyla təşkil olunan **New York Pasxa Yürüyüşü** idi. Qadın hərəkatının tarixində dönüş nöqtəsi hesab edilən bu yürüyüşü, nə qədər ironik olsa da, **American Tobacco Company** şirkəti **Lucky Strike** adlı siqaret brendinin satışını artırmaq məqsədi ilə təşkil etmişdi. Şirkətin sahibi **George Washington Hill** ictimai yerlərdə qadınların siqaret çəkməyinin tabu sayılmasını öz biznesi üçün təhlükə hesab edirdi. O vaxtlar şirkətin reklam işlərini görən **Edward Beynars** xatirələrində yazır:

> *Bir gün məni otağına çağırdı və soruşdu ki, necə edək qadınlar da siqaret çəksin? Lənət olsun! Siqaret çəkən qadınlar da siqareti evlərində çəkir. Günlərinin yarısını evdən kənarda keçirən qadınlar bayırda siqaret çəkə bilsələr, satışlarımızı ikiqat artıra bilərik. Bu məsələni həll etməlisən. Həm də təcili!***

Edward Beynars məşhur psixoanalitik **Sigmund Freudun** bacısı oğlu idi və deyilənə görə o vaxtlar dayısına bir qutu siqar hədiyyə edərək onun şüuraltı ilə bağlı dərs qeydlərini almışdı. **Beynars** ictimai yerdə qadınların siqaret çəkməsi ilə bağlı tabunu yıxmağın yolunu qadın azadlığına vurğu etməkdə görürdü. **Beynars** bu işdə siqaretin penisə bənzəyən *fallik* bir nəsnə olduğuna dair freydçi yanaşmaya arxayın idi və siqareti tətmin edici bir həyat yaşamağın əvəzedilməzi olaraq təqdim edirdi. **Beynars** New York Pasxa yürüyüşündə bir qrup cazibədar xanıma **Lucky Strike** siqaretlərini "azadlıq məşəli" olaraq əllərində gəzdirmələri üçün pul ödəmişdi. **Beynarsın** PR üçün gizlin pul ödədikləri sadəcə yürüyüşdə iştirak edən muzdlu xanımlarla məhdud deyildi. Yürüyüşə çağırış məktubuna imza atması üçün məşhur feminist hərəkat lideri **Ruth Hale** də pul alanlar sırasındaydı. Sözügedən çağırışda isə deyilirdi:

> *Bir azadlıq məşəli də sən yandır! Seksist bir tabuya qarşı müharibə elan edirik!****

Deyəsən tarix təkrar edir. 20-ci əsrin əvvəllərində **Beynarsın** oyunundan xəbərsiz New Yorklu qadınlar yürüyüşdə yandırdıqları siqareti azadlıq məşəli olaraq görürdülər. 21-ci əsrin əvvəllərində isə Bakılı feministlər simvollarla oynayıb yaman-yaxşı yaranmış mafarı bada verirlər. Təəssüf, bu qatarı da ötürürük...

— — — —